# A.A.Bakıxanov gənc nəslin həyata hazırlanması yolları haqqında

**Yunis Allahverdiyev**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Qızlar Universiteti*
**E-mail:** yunis_allahverdi@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. S.M. Quliyev,
p.ü.f.d, dos. P.M. Həsənova

**Açar sözlər:** hikmət, elm, inkişaf, mədəniyyət, həyat, gənc, tərbiyə
**Ключевые слова:** мудрость, наука, развитие, культура, жизнь, молодежь, воспитание
**Key words:** wisdom, science, development, culture, life, youth, upbringing

A.A.Bakıxanov Azərbaycan maarifçiliyinin ilkin nümayəndələrindəndir. O, 1794-cü il iyul ayının 3-də Bakının Əmircan kəndində anadan olmuşdu. Onun ailəsi xanlıqlar arasında gedən mübarizələr nəticəsində Qubaya köçür. O, Qubada ərəb dilini mükəmməl öyrənir və Şərq mədəniyyəti ilə yaxından tanış olur.

A.A.Bakıxanovun elm və mədəniyyət sahəsindəki biliyini nəzərə alaraq 1829-cu ildə Yermolov Qafqazdakı rus ordu komandanlığı adından onu Tiflisə hərbi xidmətə götürür. Bakıxanov Tiflisdə rus Qərbi Avropa elmi və mədəniyyəti ilə ətraflı tanış olur. O, hərbi xidmətlə yanaşı müntəzəm olaraq tarix, fəlsəfə, ədəbiyyat, astronomiya, coğrafiya və s. elmlərlə məşğul olur. O, insan şüurunun qüdrətinə böyük önəm verirdi. Elə bir elm sahəsi yoxdur ki, Bakıxanov o sahə ilə tanış olmasın. O, daşıdığı vəzifə ilə əlaqədar bir çox ölkə və vilayətləri gəzir, müxtəlif insanlarla, dövlət xadimləri ilə görüşür. Bu səyahətlər Bakıxanovun dünyagörüşünü, bilik səviyyəsini artırır. Bakıxanov qeyd edir ki, həmin səyahətlər sayəsində zəka və inkişafı, tərəqqisi üçün zəruri biliklər əldə etmişdir. Səyahətlər zamanı o, fransız və polyak dillərini öyrənmişdir. Bakıxanov öz xalqına xidmət etmək üçün dünya elm və mədəniyyət xəzinəsindən səmərəli istifadə etmişdir.

Bakıxanov 1834-cü ildə səyahətdən qayıdır və rəsmi dövlət qulluğundan uzaqlaşıb bütün ömrünü xalqının səadəti üçün elm və mədəniyyətə həsr etmişdir. O, bu məqsədlə Qubaya gəlir və özünün məşhur “Gülüstani-İrəm”, “Qanuni Qüdsi”, ”Əsra-ül-mələkut”, ”Təhzüb-ül-əxlaq”, ”Nəsihətnamə”, ”Müşkat-ül-ənvar” və digər əsərlərini yazır.

Onun tərbiyə və əxlaq haqqında fikirləri ”Təhzüb-ül-əxlaq”, ”Nəsihətnamə” əsərlərində öz əksini tapmışdır. ”Nəsihətnamə” əsəri ”Təhzüb-ül-əxlaq” əsərindən seçilmiş hikmətlərdir. ”Nəsihətnamə”dən verilmiş seçmələr:

• Öz ata-ananı hamıdan artıq əziz tut və hər nə buyursalar əməl elə, onları heç vaxt incitmə... Sonra, böyük qardaşına, bacı, əmi və dayına da itaət elə!

• Hər kəs vəzifədə, elmdə və yaşda böyükdürsə, ona hörmət elə, ta ki, səndən kiçiklərdə sənə hörmət etsinlər.

• Dövlət başçılarına itaət etməyi özünə vacib bil, əgər onlar olmasa, ölkədə nizam-intizam olmaz və adamlar bir-birini malına, canına və namusuna qəsd edərlər.

• Hər ölkədə olsa o vilayətin qanun-qaydalarına zidd iş görmə ki, cəzaya düçar olmayasan.

• Xalqın xeyrinə olmayan bir işi eləmə və ya bir sözü demə ki, sənə ondan zərər yetişər.

• Hər kəsə rast gələndə ona salam ver. Əgər o sənə bir söz söyləsə ədəblə dinlə və cavab

ver!

• O adamlarla otur-dur ki, böyüklər onları yaxşı adam hesab edirlər, əclaf və hərzə danışan adamlardan kənar gəz ki, sən də onlar kimi olmayasan.

• Bir adamı möhtac görəndə ona bacardığın qədər kömək elə, ta ki, başqaları da sən möhtac olanda kömək etsinlər.

• Heç kəsin pisliyini başqasına demə, çünki o şəxs sənə düşmənsə, haman sözü sahibinə çatdırar, əgər dost isə sənin haqqında bədgüman olar.

• Yalan danışmaqdan çəkin, çünki hər kəs səni yalançı tanısa, doğru sözünə də inanmazlar.

• Hər kəs sənə başqasının eybini açıb desə, ondan uzaq gəz, çünki o sənin də eybini başqalarına söyləyər.

• Heç kəslə düşmənçilik etmə ki, bir gün onunla dost olsan utanarsan.

• İnsan hirslənəndə əqli yerindən oynayır. Belə hallarda heç bir iş görmə. Ancaq hirsin soyuyandan sonra işə başla.

• Sənə tapşırılmayan işi görməyə çalışma, çünki ondan xeyir görməzsən, öz işindən də geri qalarsan.

• Tənbəllikdən qorx ki, ən böyük eyib odur. Dünya da heç şey işsizlikdən pis ola bilməz.

• Bu dünyada hər şey bir iş üçün yaranmışdır. Bir şey başqa şeyin köməyi olmadan yaşaya bilməz. Sən də onlardan birisən. Əgər bekar otursan, deməli, daş və palçıq səndən daha yaxşıdır, çünki, onlar bir evi tikmək işindəkara gəlirlər.

• Elm və kamal təhsilinə hər şeydən çox çalış, çünki hər şey onların köməyi ilə əldə edilir.

• Başqalarına pislik edənlərə yaxşılıq etmə. Bu pislərə yaxşılıq, ya da yaxşılara pislik deməkdir.

• Hər eşitdiyin sözə tez inanma. Bəlkə sənə bu sözü deyən adamın bir qərəzi vardır. Bəlkə də haman sözü heç özü yaxşı anlamamışdır, ona görə eşitdiyin sözü bir də özün ayrı yerdən təhqiq elə.

• Çox olur ki, biz işin necə olmasına əmin olduğumuz zaman sonra haman işin başqa cür olduğu məlum olur.

• Zarafat və şuxluğu özünə adət etmə ki, nəzərdə yüngül görünərsən və istehza etdiyin mövqedə xalq səndən inciyər və haqqında pis fikrə düşər.

• Mübahisə zamanı bir adama qalib gəlsən, çalışma ki, onun nadanlığı orda oturanlara aşkar olsun. Bu halda o qəlbində sənə kin bağlayar və fürsət vaxtı səndən intiqam alar.

• Söhbət zamanı başqalarının danışmağına mane olma!

• Mümkündür, hiyləgər bir şəxs səhv edib sənə lazım olan həqiqəti aşkar edər və düşmən sənə öz xeyrini başa salar. Amma sən çox danışsan, belə nöqsanlar sənin tərəfindən baş verər.

• Rahatlıq vəziyyətin yaxşılığındadır, mal, dövlət və vəzifə deyildir. Çox olmuşdur ki, bir kasıb bir tikə çörək tapır, asudəlik və şadlıqla yeyib, amma dövlət və cah-cəlal sahibləri öz işlərinin dolaşıqlığı üzündən təşviş və möhnət içində yaşayıb.

• Sənə bir müsibət üz verərsə, təvəkkül edib döz və səbir elə, çünki əldən gedən şey bir də darıxmaq və təəssüflə geri qayıtmaz, bəlkə iztirab və ahü-zarlıq gələcək işlərin tədbirlərini də əlindən alar.

• Öz dərdini başqalarına söyləmə. Əgər düşmənindirsə, sənə rişxənd edib sevinər və qüvvət göstərər, əgər biganədirsə, onların nəzərində qədir və qiymətsiz görünməyə başlarsan, əgər dost olsalar, onların kədərlənməsinə səbəb olarsan ki, bu da sənin dərdini təzələr.

• Pis xasiyyət əksər halda arzusunun əksinə nəticələrə səbəb olar. Xəsis adam dolanacağının çətinliyi qorxusundan pis yaşayır. Təkəbbürlü adam isə xalq arasında alçaq görünər, xudbin adam danlaq görüb özünü camaata güldürər. Hirsli adam başqasının günahı

üzündən əzab çəkər.

• Paxıllıq qabiliyyətsizlik əlamətidir. Hər kəs öz qüvvəsinə inansa, o özü hamıdan çox istədiyini görüb, başqalarının da tənəzzül etməsini arzular ki, özü ilə bərabərləşsin.

• Paxıllıqdan daha betər yandırıcı od ola bilməz. Paxıl adam heç vaxt rahat yaşaya bilməz. Onun öz kədəri və başqalarının fərəhi hər ikisi ona dərd olar.

• Gözü ac və həris adam həmişə azlıqdan şikayət edib dərdli olar, çünki o nə qədər mal-dövlət toplasa elə bilər ki, azdır.

• Düşmənin mehriban sözlərinə inanma, bəlkə o səni aldadır və əgər zəifdirsə fürsət vaxtını gözləyir.

• Başqalarının səni tərifləməsi ilə özünü istedadlı zənn etmə, bəlkə onun bir məqsədi vardır və bu təriflərlə öz müddəalarını pərdələmək istəyir.

• Hər mənsəbdə olsa öz həddini bil, özünü necə olduğundan nə aşağı tut, nə də yuxarı.

• Xalq sənin əhvalının necə olmasından tez xəbər tutmaz, sənin yaxşı ya pis halda olduğunu öyrənərlər. Belə isə dilini yaxşı saxla və deyilməsi lazım gəlməyən sözlərdən özünü çəkindir.

• Hər işi əql və fərasətinə müvafiq icra et, əgər baxtın gətirməsə də, heç olmasa dünyada bilici adı sənə qalar.

• Bilmədiyin bir şeyi inkar etmə və bildiyin şeyin düzgünlüyünə o qədər inanma, çünki bizim biliyimiz hələ çox az və ağlımız çox kasıbdır.

• Təvazökar və şirin dili adamın dostları da çox olar.

• Dostu çox olan adamlar xoşbəxtdirlər, bundan gözəl nə var ki, sənə müsbət üz verəndə dost dərdinə şərik olub sənin nöqsanlarını göstərən və ehtiyac olduqda kömək eyləyər.

• Dünya malını sevən və yüksək mövqe axtarmağa həris olan adam dostluğa yaramaz, çünki o, həmişə öz xeyrini güdüb, başqalarına ziyan verməyə çalışar.

• Hər işdə özündən bilikli və qərəzsiz adamlara məsləhət elə. Bir adamın əqli hər işin səlahını bilə bilməz.

• Sözün qədrini onu deyənin halı ilə qiyas etmə, vaxt olar ki, anlamaz elə söz deyər ki, ağıllılar ona heyran qalarlar və ya ağıllılar elə səhvə yol verər ki, nadan onu etməz.

• Yaxşılıq etməklə azad kişini özünə qul edərsən əziyyət versən, tabeliyində olanlar səndən üz döndərərlər.

• Çox yeməkdən çəkin, çünki bədənin səlamətliyinə və ağıla zərəri vardır.

• Nəfsin istəyini etmə, əqlin istəyini icra et, çünki yaxşı və pisi ağıl seçir.

• Ağıldan və əməldən üstün bir dövlət yoxdur. Çünki onlar həmişə səninlədir və onları heç kəs səndən ala bilməz.

• Bir adama nəsihət və məsləhət vermək istəyib, onu işinin səlahını demək istəsən, xəlvətdə de ki, xalq arasında qəbul etməz, hələ bəlkə səndən inciyər də.

• Hər nə və vermiş olsan, onu yerinə yetirməyə çalış ki, başqa vaxt yenə vədə verəndə onu yerinə yetirəcəyinə inansınlar.

• Mümkün qədər başqasından borc şey alma, çünki onun gözündə alçaq görünərsən və o, sənə böyük görünər.

• Bu gün görə biləcəyin işi sabaha qoyma, bəlkə sabah onu edə bilmədin.

• Düzgünlüyü özünə şüar elə, hər kəs əyriliyə qurşansa, xalq içində rüsvay olar.

• Əgər bir şəxsin eybini bilərsənsə, onu unutmağa çalışma.

• Yaxşılıq ehtimalı olan yerdə adamların işlərini pisliyə yozma, bəlkə məsləhət belədir və sən onun mənasını hələ dərk etmirsən.

• İnsanın şərafəti öz qabiliyyətinə görədir, nəslinə görə deyildir. Ağıllı övladın nəslə

ehtiyacı yoxdur. Naxələf övLad isə nəslin adını batırır.

• Özünə rəva bilmədiyini başqasına rəva görmə ki, onun əvəzində bir başqasından cəza alarsan.

• Hər əməlin bir cəzası vardır. Hər kəsə nə yaxşılıq və ya pislik etsən özünə etmiş olarsan.

• Gizlində hər söz desən və ya iş görsən , arxayın olma ki, sən xəlvətdəsən və başqası bunu bilməz. Çox olar ki, o sözün və ya əməlin üstü açılar və rüsvay olarsan.

• Heç kəsə zərər vermə, öz hesabında pak ol, əmanətə xəyanət etmə, ta ... xalq səndən üz çevirməsin.

• Qohum – qonşu və onlarla və onlara bağlı olan adamlara mehriban ol, onlara kömək et ki, onlar da sənə mehriban olsunlar.

• Qohum – qardaş və yerli əhali ilə yaxşılıqla müdafiə elə ki, onlar da səninlə elə müdafiə etsinlər. B il ki, sən təksən, onlar isə çoxdurlar... birinin çoxa ehtiyacı aydındır.

• Pis xasiyyətli adamlardan və pis xasiyyətlilikdən qorx ki, o, gözəl əxlaqı korlayır, çünki bədməcaz adam özü-özündən incik olduğu halda, xalqdan nə gözləyə bilər.

• Hər kimə yaxşılıq etdikdə açıq və ya işarə ilə ona minnət qoyma ki, yaxşılığın qiyməti itər, xoşluq yerinə inciklik törəyər.

• O adam ağıllı hesab olunur ki, öz nöqsanını başqalarından çox görsün və hünərini az bilsin.

• Mümkün qədər dost qazanmağa çalış, çünki düşmənçilik peşmançılıq törədər.

• Heç düşməni gücsüz sanma, ehtimal onun bir güclü dostu olar və ona kömək çıxar.

• Qəlbində heç kəsə kin saxlama ki, rahatçılığın əlindən gedər.

• Hər kəsdən sənə haqqında pis xəbər vermişlərsə, bunu onun özünə demə ki, eşitdiyin sözün düz və ya əyri olasını onun hərəkət və söhbətlərindən başa düşərsən.

• Hər kəs xəsis olub mal yığsa, özünü bu maldan məhrum edər, çünki bu mal ya bir hadisədən tələf olar, ya vərəsəyə qalar.

• Mal-dövlət sərf edərkən israf etmək lazım deyildir, çünki başqa daha lazımlı yerə sərf etmək lazım gəldikdə əldə etmək olmaz.

• Gördüyün pis əməlin sənə xeyri olmaz, pis adı qalar.

• İnsan yaxşı əməldən iki dəfə zövq alar. Birincisi onu edən zaman, ikincisi nəticəsini görən zaman.

• Dünyada heç bir şey əbədi deyildir. Özünü məhv edib olub gedən şeylə əzaba salma.

• Ömrü elə işə sərf etmə ki, sonra ondan əl çəkməlik olacaqsan.

• Bir işin tədbirinə tələsmə, icrasına isə tələs. Çünki işin əhəmiyyətini anlamaq üçün çox, icrası üçün isə az vaxt lazımdır.

• Kasıblıq və biçarəlikdən şikayət etmə ki, dünyada səndən çox kasıb və biçarələr vardır ki, onlar sənin kimi ola bilsəydilər, özlərini xoşbəxt hesb edərdilər.

• Gördüyün iş istənilən nəticəni vermədikdə yoxla, bəlkə onun günahı özündədir. Çox olur ki, biz işimizi ağlımızın mühakiməsi ilə etmirik və sonra başqalarını günahkar hesab edirik.

• Həmişə etidala riayət etmək lazımdır. Xəsisliyə israfa yol versək, xeyir görmərik. Mehribanlıq gözəl xasiyyət olsa da bəzən qəzəb də öz yerində bəyənilir. Deməli ağıllı adam odur ki, hər işdə orta vəziyyəti özünə adət etsin.

• Təqsirkar bir adamı bağışlatdırmağa çalışma, çünki belə olduqda pis adamlar cürət edib, zəiflərə əziyyət edərlər.

• Günahsız bildiyin adamı nahaqdan cəzalandırırlarsa, hər vəchlə olur-olsun, onu bəla və iftiradan xilas elə.

• Bədbəxt o adama deyərlər ki, başqasına bacardığı halda yaxşılığı etməsin.

• Hər işin varsa, özün onun yetirilməsinə nəzarət et.

**Məqalənin aktuallığı.** Böyük həyatın ilk pilləsinə qədəm qoymuş gənclərin ətrafda baş verənlərə biganə olmamağa zəmanə dönəmində əxlaq müstəvisində davranışlara əməl olunmasında təmiz, pak mənəviyyat sahibi olmaqda onlara köməklik göstərməkdir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə A.A.Bakıxanovun müasir dövrümüzlə səsləşən və gənclərimizin əxlaq tərbiyəsində mühüm əhəmiyyət kəsb edən seçmə nəsihətləri verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. A.A.Bakıxanovun seçilmiş əsərləri. Bakı, 1984.
2. H.Hüseynov Görkəmli Azərbaycan alimi A.A.Bakıxanov. Bakı, 1949.
3. Ş.Quliyev. Gəncliyin davranış və nəzarət dəyərləri. Bakı, 1994.
4. V.Nəbioğlu. A.A.Bakıxanov. Bakı, 1949.

**Ю. Аллахвердиев**

## Заветы А.А.Бакиханова о путях подготовке молодого поколения к жизни

## Резюме

В статье описывается жизнь и деятельность азербайджанского философа А.А.Бакиханова, его избранные заветы из книги «Насиатнаме» о путях подготовки молодого поколения к жизни.

**Y. Allahverdiyev**

## A.A.Bakhıkanov's advice about the way of prepared a new generation to the life

## Summary

In the article have been written selection about prepearing a new generation, their behavior and ethic from "Nasihatnama" by A.A.Bakhikhanov.

**Redaksiyaya daxil olub:** 30.04.2019